# AZƏRBAYCANDA DİSTANT TƏHSİLİN KOMMUNİKASİYA TEXNOLOGİYALARI VƏ ŞƏBƏKƏ PROBLEMLƏRİ

**Aygün Əliyeva**
*Kitabxanaşünaslıq kafedrası, müəlim*

***Xülasə:*** *Müasir dövrdə cəmiyyətin, iqtisadiyyatın, ayrı-ayrı şəxslərin inkişafı prosesində fasiləsiz təhsilin tərkib hissəsi olan distan təhsilin əhəmiyyətinin artması müşahidə olunur. Məqalədə distant təhsil formasının tətbiqi məsələləri və bu istiqamətdə qarşıya cıxan problemlər işıqlandırılmışdır. Eyni zamanda müxtəlif təhsil müəssisələrində tətbiq olunan şəbəkə, kommunikasiya texnologiyaları və virtual təhsil mühitinin formalaşmasında qarşıya çıxan problemlər haqqında məlumat verilir.*
***Açar sözlər:*** *distant təhsil, kommunkasiya texnologiyaları, virtual təhsil offlayn təlim*

**Giriş.** Cəmiyyətin sosial-iqtisadi inkişaf dinamikası göstərir ki, vətəndaşların və bütün cəmiyyətin rifah səviyyəsi əmək bazarının tələbatına uyğun olaraq kadr hazırlığının vahid sisteminin təşkili və effektivliyi səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Bu istiqamətdə müvəffəqiyyətə nail olmaq üçün problemlərin həllinə elmi, texniki və təşkilati dəstək göstərmək, yüksək ixtisaslı mütəxəssislərin xüsusi hazırlığa malik olması mühüm şərtdir. Bu məqsədlə məsafədən öyrənmə və elmi tədqiqatlara yönəldilən informasiya sistemlərində kommunikasiyaların səmərəliliyinin artırılması üçün modellərin, metodların və proqramların inkişafı, İKT- dən səmərəli istifadə və tətbiqi vahid ümummilli DT sisteminin formalaşdırılması və bu istiqamətdə əhalinin bütün təbəqələri üçün kefiyyətli təhsil almaq imkanının təmin edilməsi, həmçinin Azərbaycan təhsil sisteminin dünya DT şəbəkəsinə inteqrasiyası üçün yaradılmış uyğun şəraitin tədqiqi kimi məsələlərə xüsusi diqqət yetirilməlidir.

Ölkəmizdə DT sisteminin yaradılıb, işə salınmasında başlıca ehtiyac onunla əlaqələndirilməlidir ki, əksər hallarda elm və tədris mərkəzlərinin yerləşdiyi şəhərlər təhsillərini davam etdirmək istəyində olanlardan uzaqda yerləşir. Bu isə paytaxt şəhəri olan Bakıda əhalinin sıxlaşmasına səbəb olur. Təbii olaraq regionlarda yaşayan hər bir gənc təhsilini böyük şəhərdə, xüsusilə də mərkəz Bakıda almaq arzusunda olur. Təhsilini başa vuran gənc tələbələrin böyük əksəriyyəti isə yaşadığı əraziyə qayıtmaq istəməyərək paytaxtda qalmağa üstünlük verir. Bu isə öz növbəsində tarazlığın pozulmasına, yəni regionlarda işçi qüvvəsinin azalmasına, şəhərdə isə artıqlığına gətirib çıxarır. Bu mənada DT forması bu cür problemin həll yolu ola bilər. Təhsil alan yaşadığı ərazini tərk etmədən istədiyi təhsili alaraq həmin yerdəcə cəmiyyət üçün faydalı işlə də məşğul ola bilər.

Təhsilin yeni forması olan DT-nin Azərbaycanda ali təhsil sisteminə tətbiqi mərhələsində həll olunmalı başlıca problemlərdən biri kommunikasiya

texnologiyalarının və şəbəkə tədris proqramlarının yüksək səviyyəsini təmin etmək, həmçinin bu sistemin tələbələr üçün rəqabətə davamlı və əlçatan olmasını göstərməkdir. DT-nin müddəti, onun məzmunu və təşkil formaları dövlət təhsil standartlarına, tədris proqramları tələblərinə uyğun olaraq müəyyənləşdirilməli, müəyyən fənlər üzrə hazırlanan tədris planları aydınlaşdırılmalıdır.

DT formasını tətbiq edərkən onun potensial istifadəçiləri olacaq sosial qruplar nəzərə alınmalıdır. Həmin qruplara:

– Ölkəmizin təhsil mərkəzlərindən uzaq məsafədə yerləşən regionlarda yaşayan vətəndaşlar;

– Təhsilini başa vurmuş, lakin peşə hazırlığı səviyyəsini artırmaq istəyən mütəxəssislər;

– Bir təhsil almaqla yanaşı, ikinci ali təhsil arzusunda olan tələbələr;

– Məşğulluq xidmətlərində qeydiyyatdan keçmiş işsizlər;

– Daxili İşlər Nazirliyi və Sərhəd Qoşunlarında xidmət edən zabitlər, müddəti xidmətdə olan əsgərlər;

– İşləmək məcburiyyətindən ənənəvi təhsil sistemi üzrə təhsil almaq imkanı olmayanlar;

– Silahlı Qüvvələrdə xidmət edənlər;

– Öz ixtisasının spesifik xüsusiyyətlərinə görə ənənəvi sistem üzrə təhsil ala bilməyənlər;

– Məhkum olunmuş şəxslər;

– Ənənəvi təhsil sistemi formalarında təhsil almaq üçün tibbi icazəsi olmayanlar bu sosial qruplara aid oluna bilər.

Yuxarıda sadalananlar üçün təhsil almağın əlverişli şərtləri – işdən ayrılmadan təhsil almaq imkanı, ənənəvi təhsil forması ilə müqayisədə aşağı maya dəyərinə sahib olması, göstərilən xidmətlərin keyfiyyəti göstəricisi və s. Amillər aiddir.

Ölkədə olan ali təhsil müəssisələrinin dünya DT şəbəkələri sırasına qoşulması və təhsil şəbəkələrinin genişlənməsi, həmçinin DT sistemində telekommunikasiya vasitələri ilə tədris layihələsinin hazırlanması problemi ön cərgədə durur. Ancaq bütün güc və vəsaitlər texniki problemlər və şəbəkədə informasiyanın ötürülməsi məsələsinin həllinə cəmləşməməlidir. Çünki DT-də maliyyə xərcləri və əmək məsrəfi tələb edən istiqamətlərindən biri elektron-metodik vasitələrin və kadrların hazırlanmasıdır. Tələb edilən qədər tədrisin effektiv şəkildə baş tutmasını təmin edən şəbəkə administratorlarının, yəni tyutorların olması da vacib məsələlərdəndir. Distant təlimin tam həcmdə təşkil edilməsi üçün Azərbaycan ali təhsil məktəblərində virtual təhsil mühitinin yaradılması üçün aşağıdakı sadalananlar yerinə yetirilməlidir:

– Təhsilin müxtəlif ixtisas istiqamətləri üzrə tələbələrlə variantı üçün təhsilin xüsusi informasiya mühitində fəaliyyət göstərmək bacarıqlarına sahib müəllimlərin hazırlanması;



– Xüsusi keyslərin olması (tədris fənləri üzrə multimedia kompleksləri və ya elektron-tədris-metodik vasitələri istifadə edilməklə fərdi metodik-tədris materiallarını əhatə edən texnologiyalar);

– Tədris prosesinin tam dəyərli tələblərə uyğun müvafiq inzibati tənzimlənməsi üçün elektron-informasiya-sənəd dövriyyəsinin mövcudluğu;

– Didaktik təminatın yaradılması ilə məşğələlərin səmərəli keçirilməsi üçün kompüter, televiziya və şəbəkə vasitələrinin dəstəyi;

– Hər bir fənn üzrə dövlət təhsil standartlarına uyğun avadanlıqlarla tədris prosesinin effektiv təşkili.

Ali təhsil müəssisələrində DT mühitində tələbələrin təhsillə bağlı tələbatlarının təmin edilməsi yönündə informasiya resurslarını, təşkilati-metodik təminat, məlumatlar kompleksləri, protokollar və aparat proqram təminatı sistemli formada hazırlanmalıdır [4, s.6].

DT-nin təşkili ilə bağlı təhsil müəssisələrində iki vacib məsələ həll olunmalıdır: elmi-metodik və təhsilin təşkil edilməsi məsələsi. Aşağıdakı funksiyaları icra edən təhsil-metodik filiallar yaratmaqla təşkilati məsələni həll etmək olar:

– təhsil xidmətlərinin bölgələrdə marketingi,

– insanları cəlb etmə və reklam kompaniyası,

– təhsil prosesinin təşkili.

Qeyd olunan bu mərkəzlər keyfiyyətli sənəd dövriyyəsinin təmini üçün elektron MB (məlumat bazası) yaratmalıdırlar. Distant təlimin interaktivliyi təhsil alanların dərsi nə dərəcədə mənimsənilməsini də əhatə edir [7]. Tələbələrin mövcüd kompüter proqramında yerinə yetirdiyi yoxlama tapşırıqları və testləri cavablandırdığı zaman tam mənimsənilmiş mövzu olduqda proqram həmin tələbəni anındaca mənimsəmədiyi və kifayət qədər anlamadığı mövzuya, bölməyə qaytarır.

Azərbaycan DT modeli hazırlanarkən həll ediləsi vacib problemlər sırasında bilik, bacarıq, vərdişlərin qiymətləndirilməsi, optimal və effektiv formalardan istifadə edilərək aralıq attestasiya və cari nəzarətin elektron formalarının müəyyən edilməsi durur. DT sistemində tələbələr reytinq prinsipinə əsaslanan üsulla biliklərini qiymətləndirməli (aralıq attestasiya), test yoxlama işləri, imtahanlar, monitorinqlər, yoxlama attestasiyası aparılmalı, fərdi və kurs işləri yerinə yetirilməlidir. Bu cür attestasiyaların yaradılması və aparılması ali məktəblərin xərclərini xeyli azaltmağa kömək edir.

DT sistemini formalaşdırarkən aşağıdakı komponentlər də nəzərdə alınmalıdır:

– ev tapşırıqlarını yerinə yetirərkən, virtual dərsliklə işləyərkən, verilən materialın elmi-nəzəri icmalının, təhlilinin və referatlaşdırılmasının hipermətnlə işlənməsi;

– mühazirəli videofilmə baxaraq, yəni imprintinq mənimsənilməsi;

– tele-mühazirə ilə baxış;

– seminarların virtual siniflərdən istifadə etməklə interaktiv formada, yəni diskussiyalar, işgüzar və rol oyunları şəklində keçirilməsi, həmçinin mövzuların şifahi və yazılı işlənməsi;

– dərslərin fərdi formada orijinal metodika ilə öyrənilməsi;

– fərdi məşğələlərin İnternet şəbəkələri vasitəsilə keçirilməsi;

– elektron kitabxana forması və universal modullar vasitəsilə praktiki məşğələlərin və laboratoriya işlərinin yerinə yetirilməsi;

– cari buraxılış imtahanlarının yazılı və modul testləşdirmə ilə verilməsi [6, s.190].

Offlayn təlim zamanı isə tələbələr İnternet şəbəkəsinə daxil olmadan onlara e-mail vasitəsilə göndərilən tədris materiallarını əldə edirlər. DT formasından istifadə edənlər üçün geniş informasiya bazası mövcud olduğundan informasiyanın qorunması, istifadə edilən proqramları işləyənlərin müəlliflik hüququnun qorunması, proqram vasitələrinin testləşdirilməsi və sertifikatlaşdırılması zamanı ortaya çıxan əlavə problemlərin həll edilməsi zərurəti yaranır.

**Nəticə.** DT problemi ümumi xarakter daşıyır. Bu problemlərə iqtisadi, sosioloji və psixoloji-pedaqoji elementlər aiddir. Eyni zamanda Azərbaycanda DT sisteminə keçmək üçün qeyd olunduğu kimi ali təhsil müəssisələrinin maddi-texniki bazası bu formaya uyğunlaşdırılmalıdır. Bu isə ilk addım kimi istənilən ixtisasın tədrisinə aid elektron resursların yaradılması, öyrəniləcək fənlərə uyğun elekron baza qurulması ilə başlamaq deməkdir. Bunun üçün isə müəyyən zaman tələb olunur. Bundan başqa hansı avadanlıq və vasitələrin zəruriliyi və onların istifadə qaydasını; alınan proqram təminatının bütün imkanlarını və üzləşilən problemlərin hansı hissəsinin proqram təminatı ilə həll edilə biləcəyini; təhsil prosesində hər bir iştirakçının rolunun nələrdən ibarət olduğunu bilmək vacibdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. – Bakı: Hüquq ədəbiyyatı, 2010, – s. 80
2. Azərbaycan Respublikasında Fasiləsiz Pedaqoji Təhsil və Müəllim Hazırlığının Konsepsiya və Strategiyası // Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2007, №6, 30 iyun.
3. Hüseynova A.S. Fasiləsiz təhsil sisteminin tərkib hissəsi olan distant təhsilin təşkilində elektron kitabxanaların iştirakı // Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası, – Bakı: BUN. 2008. № 3, – s. 243-248
4. Васильев В. Дистанционное обучение: деятельностный подход // Дистанционное и виртуальное обучение. 2004. N 2. – с. 6-7
5. Добролежа, Е.В. Система непрерывного образования в течение всей жизни// Успехи современного естествознания. 2008. № 9, – с. 51-52
6. Федоров, В.Н. Электронная библиотека и дистанционное образование // Современные наукоемкие технологии, 2010. №10. – с. 188-191
7. www.mesafedenmekteb.edu.az




**А.С.Алиева**

**Коммуникационные технологии и сетевые проблемы дистанционного образования в Азербайджане**

***Резюме:*** *В современное время в процессе развития общества, экономики и личности возрастает значение дистанционного образования, которое является частью непрерывного образования. В статье освещаются вопросы применения дистанционной формы обучения и проблемы, возникающие в этом направлении. При этом предоставляется информация о сети, коммуникационных технологиях, применяемых в различных учебных заведениях, и проблемах, возникающих при формировании виртуальной образовательной среды.*

***Ключевые слова:*** *дистанционное образование, коммуникационные технологии, виртуальное образование, офлайн-обучение и т. д.*

**A.S.Aliyeva**

**Communication technologies and network problems of distance education in Azerbaijan**

***Summary:*** *In modern times, the importance of distance education is increasing, which is part of continuous education in the process of development of society, economy and personality. The article highlights the issues of using distance learning and the problems that arise in this direction. At the same time, information is provided about the network, communication technologies used in various educational institutions, and the problems that arise in the formation of a virtual educational environment.*

***Key words***: *distance education, communication technologies, virtual education, offline learning, etc*

***Rəyçi:*** *p.ü.f.d., dos.* ***E.Əhmədov***